# Hərbi sənaye kompleksinin inkişafı prioritetdir

## *Dövlət başçısı bildirib ki, güc amili bir çox məsələləri həll edir, ona görə, gələcəkdə də ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi bir nömrəli vəzifə olacaqdır*

**Bu gün Azərbaycan Ordusu maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından dünyanın güclü silahlı qüvvələri sırasındadır. Azərbaycan Ordusunun malik olduğu silah və texnika imkan verir ki, istənilən vəzifəni şərəflə yerinə yetirsin. Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ordu qurucluğunun dövlətimiz üçün daim prioritet olduğunu vurğulayan cənab İlham Əliyev bildirib ki, beynəlxalq hüquq normalarının pozulması xoşagəlməyən reallıqdır: "... Kim necə istəyir beynəlxalq hüquq normalarını elə də yozur və nəticə etibarilə biz görürük ki, güc amili bir çox məsələləri həll edir. Biz də buna hazır olmalıyıq və hazırıq. Ona görə, gələcəkdə də ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi bir nömrəli vəzifə olacaqdır. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu, daha da ciddi diqqətə malik olmalıdır".**

İldən-ilə ordumuzun döyüş qabiliyyəti artır, maddi-texniki təminatı yaxşılaşır. Azərbaycanın Silahlı Qüvvələrində aparılan islahatlar müsbət nəticələr verir. Hərbi xərclər ilbəil artır. Bu gün bu xərclər 3 milyard dollardan artıqdır. Azərbaycan Prezidentinin qərarı ilə yaradılan hərbi sənaye kompleksi 10 il müddətində minə yaxın adda hərbi təyinatlı məhsul istehsal edir. Bu da ordunun təchizatında mühüm rol oynayır, bu sahədə idxaldan asılılığı böyük dərəcədə dəyişir. Eyni zamanda Azərbaycan hərbi məhsullarını ixrac edir. Azərbaycan dünyanın aparıcı beynəlxalq sərgilərində öz məhsullarını nümayiş etdirir. Qeyd edək ki, Bakıda da hərbi sənaye məhsullarının beynəlxalq sərgisi uğurla həyata keçirilib.

Məlumat üçün bildirək ki, 2015-ci ilin birinci yarısında da Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində nəzərdə tutulan hərbi məhsulların istehsalı uğurla həyata keçirilib. Respublikanın güc strukturlarının sifarişləri əsasında bağlanmış müqavilələr üzrə müdafiə təyinatlı məlumatlar istehsal olunaraq sifarişçilərə təhvil verilib. Eləcə də mülki məlumat istehsalının genişləndirilməsi davam etdirilib. Qeyd edək ki, ilin ilk altı ayında istehsal olunan məmulatların 85 faizini müdafiə və xüsusi təyinatlı, 15 faizini isə mülki məlumatlar təşkil edir. Mülki məhsulların istehsalı üzrə proqnoza 106 faiz əməl olunub. Bu ilin proqramına uyğun olaraq, birinci yarımillikdə hərbi sənaye müəssisələrində yaradılma üzrə 81 mövzunu və 143 mərhələni əhatə edən elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilib. Müdafiə təyinatlı məlumatların yaradılması sahəsində nazirliyin elmi müəssisələrin potensialından istifadə etməklə bir sıra elmi-tədqiqat və təcrübi-konstruktor işləri uğurla həyata keçirilir. Bu sahədə respublikanın elm ocaqlarından Azərbaycan Milli Elmlər Akademiyası, Milli Aviasiya Akademiyası və digərləri ilə sıx əməkdaşlıq edilir.

Hazırda Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutunda bu il 20 mövzu, o cümlədən dövlət sifarişi xətti ilə 9 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilir. Eləcə də Milli Aerokosmik Agentliyinin 2015-ci ildə elmi tədqiqat işləri üzrə planında müdafiə təyinatlı məlumatların fəaliyyət prinsiplərinin işlənməsi, aerokosmik məlumatların emalının təkmilləşdirilməsi və ekoloji monitorinq məsələlərinin həllinə xüsusi yer verilib.

Digər tərəfdən, hərbi sənaye müəssisələrində yaradılan və istehsal edilən məlumatlar cari ilin mayında İstanbulda keçirilən "İDEF-2015" beynəlxalq müdafiə sənayesi sərgisində uğurla nümayiş olunub. İki ildən bir keçirilən "İDEF" sərgisində Azərbaycan artıq dördüncü dəfə iştirak edib. Bu sərgidə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi 184 adda müdafiə təyinatlı məlumat nümayiş etdirib. Beynəlxalq sərgidə nümayiş olunan məlumatlar tədbirə qatılan xarici ölkələrin nümayəndə heyətləri tərəfindən böyük maraqla qarşılanıb. *"İDEF-2015" sərgisi çərçivəsində bir sıra* ölkələrin qabaqcıl şirkətlərini təmsil edən nümayəndə heyətlərinin rəhbərləri ilə Azərbaycan tərəfinin görüşləri keçirilib, mövcud və yeni əməkdaşlıqlara dair danışıqlar aparılıb. Sərgi zamanı 2016-cı ildə Azərbaycanda keçiriləh "ADEX-2015" ikinci beynəlxalq



müdafiə sənayesi sərgisi ilə bağlı məlumat verilib və dəvətlər çatdırılıb. Bütün bunlar ölkəmizin gücünü göstərir, eyni zamanda orduya göstərilən diqqətin təzahürüdür.

Bu ilin iyun ayında Azərbaycanda Hərbi Dəniz Qüvvələri bazasının açılması da ölkəmizin hərbi qüdrətini artırır. Bu baza son illər ərzində Azərbaycanda yaradılan ən böyük hərbi obyektlərdən biridir. *Dövlət başçısı cənab İlham Əliyevin də bəyan etdiyi kimi Xəzər hövzəsində də ən böyük hərbi obyektlərdən biridir və ölkəmizin hərbi potensialının gücləndirilməsi üçün bu bazanın çox böyük əhəmiyyəti olacaqdır.*

Bu gün iqtisadi, siyasi, hərbi gücü artan Azərbaycan işğal altında olan torpaqlarını hər an azad etməyə qadirdir. Torpaqlarımızın təkcə Ermənistan tərəfindən işğal edilmədiyini vurğulayan cənab İlham Əliyev bildirib ki, *bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamafob siyasətçilər, anti-Azərbaycan qüvvələrdir: "Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş-daş üstündə qalmaz. Bu da reallıqdır və yenə də deyirəm, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, biz bu istiqamətdə bütün hazırlıq işlərini görürük".*

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**